## Kiçik və orta sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsidir

Sadələşdirilmiş vergi üzrə dövlət büdcəsinə daxilolmaların həcmi artır

Kiçik biznesin inkişaf etdirilməsi iqtisadiyyat üçün əsas şərtdir. Azərbaycan Prezidenti kicik və orta sahibkarlığın inkişafı üçün hökumət tərəfindən mütəmadi olaraq tədbirlərin həyata keciriIdiyini vurğulamışdır: «Biz çalışmalıyıq ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı daha sürətlə getsin. Dövlət qurumları - həm mərkəzi qurumlar, həm də bölgələrdə yerləşən qurumlar sahibkarlığın inkişafına kömək göstərməlidirlər».

Kiçik sahibkarlığın stimullaşdırılması
iqtisadi inkişafa zəmin yaradır

Prezidentin bu sahəyə diqqət və qayğısı nəticəsində ölkədə sahibkarlığın inkişafına dövlət dəstəyi tədbirləri ilbəil genişləndirilir. Təsadüfi deyildir ki, Sahibkarlığa Kömək Milli Fondu 2011-ci ildə regionlarda və Bakı qəsəbələrində 1643 sahibkarın müxtəlif həcmli layihələrinin maliyyələşdirilməsinə 138 milyon manat güzəştli kredit ayırmışdır. Bu kreditlər hesabına 6500-dək yeni iş yeri yaradılmışdır. Verilən kreditlərin 75%-i regionlara, 25%-i isə Bakı qəsəbələrinin payına düşür. Ötən il Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan maliyyə vəsaitləri hesabına 33 istehsal, emal və infrastruktur müəssisəsi istifadəyə verilmiş, bu il isə 96 istehsal, emal və infrastruktur müəssisəsinin istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Cari ilin ötən dövrü ərzində fondun vəsaitləri hesabına sahibkarlıq subyektlərinə 1154 investisiya layihəsinin maliyyələşdirilməsi məqsədi ilə 102,9 milyon manat güzəştli kredit verilmişdir. Bu layihələrin reallaşdırılması nəticəsində 4200-dən çox yeni iş yerinin yaradılacagı gözlənilir. 2012-ci ildə verilmiş güzəştli kreditlərin 9,6 milyon manatı sahibkarlıqla məşğul olan məcburi köçkünlərin payına düşür.

Təkcə son 3 ildə 5200-dək sahibkara 383 milyon manat kredit verilmişdir ki, bunun da 152 milyonu dövlət büdcəsi, 231 milyon manatı isə geri qayıdan vəsaitlər hesabına verilmişdir.

Ölkəmizdə kiçik və orta sahibkarlıqla məşğul olanların
böyük əksəriyyəti sadələşdirilmiş vergi ödəyiciləridir

Sahibkarlığın inkişafı üçün kreditlərin ayrılması, onların fəaliyyətinin yaxşılaşdırılması məqsədilə iqtisadi şəraitin daha da liberallaşdırılması nəticəsində bu sahə üzrə vergi daxilolmaları əhəmiyyətli dərəcədə artmışdır. Onu da qeyd edək ki, ölkəmizdə kiçik və orta sahibkarlıqla məşğul olanların böyük əksəriyyəti sadələşdirilmiş vergi ödəyiciləridir və onların böyük əksəriyyəti qeyri-neft-qaz sektorunda fəaliyyət göstərir. Ötən il ərzində sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 100 milyon 394 min manat vergi ödənilmişdir ki, bu da 2010-cu illə müqayisədə 34 milyon 893,5 min manat və ya 53,3% çoxdur. Cari ilin ötən beş ayı ərzində isə sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 41 milyon 119 min manat vəsait ödənilmişdir.

Kiçik sahibkarlıqla məşğul olan
vergi ödəyiciləri vergi öhdəlıklərini
qanuni qaydada yerinə yetirirlərmi?

Müşahidələr göstərir ki, bir çox hallarda kiçik sahibkarlıqla məşğul olan şəxslər öz dövriyyələrini süni şəkildə azaltmaqla ƏDV öhdəliyinin yaranması üçün vacib olan dövriyyəni keçməməyə üstünlük verirlər. Bu da nəticədə külli miqdarda dövriyyənin gizlədilməsi və vergidən yayınma faktının yaranmasını ortaya çıxarır. Son illərdə belə hallarla mübarizə tədbirləri əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Vergilər Nazirliyi tərəfindən həyata keçirilən operativ və digər nəzarət tədbirləri zamanı bu məsələlərə xüsusi diqqət yetirilir. Bununla yanaşı, kiçik sahibkarların fəaliyyətində şəffaflığın təmin olunması istiqamətində də ciddi işlər görülür. Belə tədbirlərdən biri də nəzarət-kassa aparatlarında elektron məsafədənötürmə qurgularının quraşdırılmasıdır. Bu qurğular vasitəsilə ticarət obyektlərində dövriyyənin hansı səviyyədə olduğuna, qanuna necə riayət edildiyinə, satılan mala görə çek vurulub-vurulmadığına kənardan nəzarət etmək mümkün olur. Beləliklə, satış mərkəzlərində keçirilən bütün əməliyyatlar onlayn rejimində Vergilər Nazirliyində

nəzarətə götürülür və bütün bu tədbirlər vergidən yayınmanın qarşısını almaqla yanaşı, dövlət büdcəsinə vergiləri tam və vaxtında ödənilməsini təmin edir.

Rəşad SADIQOV